# Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında sərmayələrin qarşılıqlı təşviqi və qorunması haqqında

# SAZİŞ

bundan sonra Razılığa gələn Tərəflər adlarından Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti,

öz aralarında, xüsusilə bir Razılığa gələn Tərəfin sərmayəçilərinin digər Razılığa gələn Tərəfin ərazisində sərmayəsi ilə əlaqədar, yüksək iqtisadi əməkdaşlığı gücləndirməyi arzu edərək;

Bu cür sərmayəyə tətbiq ediləcək rejim haqqında belə razılaşmanın kapital və texnologiyanın axınına və Razılığa gələn Tərəflərin iqtisadi inkişafına təkan verəcəyini etiraf edərək;

Sərmayə və iqtisadi ehtiyatların maksimum səmərəli istifadəsi üçün sabit çərçivənin dəstəklənməsi məqsədilə sərmayənin ədalətli və bərabər rejiminin arzu olunduğu ilə razılaşaraq,

aşağıdakılar barədə Razılığa gəldilər:

M a d d ə 1

## Anlayışlar

Bu Sazişin məqsədi üçün:

1. «Sərmayə» terminin qəbul edən Razılığa gələn Tərəfin qanun və qaydalarına uyğun olaraq, xüsusilə, lakin istisna olmamaqla, əmlakın hər növünü daxil edəcəkdir:

a. səhmlər, qiymətli kağızlar və ya şirkətlərdə iştirakın istənilən digər forması.

b. yenidənsərmayə edilmiş gəlirlər, pulla bağlı iddialar və ya sərmayə ilə bağlı maliyyə dəyərə malik olan qanuni icraya olan istənilən digər hüquqlar,

c. daşınar və daşınınaz mülkiyyət, habelə onlara dair girov (ipoteka), icarə və saxlanc hüquqları kimi digər hər hansı bir oxşar hüquqlar,

d. müəllif hüquqları və patentlər, lisenziyalar, sənaye dizaynları, texniki proseslər, habelə ticarət nişanları, «işgüzar nüfuz» və «nou-hau» kimi sənaye mülkiyyət hüquqları,

e. qanunla və ya müqavilə çərçivəsində verilmiş işgüzar konsesiyalar, o cümlədən Razılığa gələn Tərəflərdən hər birinin ərazisində, bundan sonra təyin olunduğu kimi, təbii ehtiyatların axtarışı, işlənməsi, hasilatı və istismarı üzrə konsesiyalar.

2. Hər hansı bir Razılığa gələn Tərəf üçün «sərmayəçi» termini aşağıdakılara aid edilir:

a. həmin Razılığa gələn Tərəfin qanunvericiliyinə uyğun olaraq onun vətəndaşları hesab olunan fiziki şəxslərə,

b. hər hansı bir Razılığa gələn Tərəfin qüvvədə olan qanunvericiliyinə uyğun olaraq təsis edilmiş və ya təşkil edilmiş və həmin Razılığa gələn Tərəfin ərazisində qərargahları olan korporasiyalar, firmalar və biznes assosiasiyaları və digər oxşar təşkilatlar.

3. «gəlirlər» termini sərmayədən əldə edilən məbləğlər deməkdir və, xüsusilə, lakin istisna olmamaqla, mənfəətləri, faizləri və dividendləri daxil edir.

4. «Ərazi» termini kimi,

Azərbaycan Respublikasına münasibətdə, Azərbaycan Respublikasının ərazisi, o cümlədən Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına məxsus olan sektoru. Azərbaycan Respublikasının öz suveren hüquqlarını həyata keçirdiyi yerin təki, dənizin dibi və təbii ehtiyatlar və Azərbaycan Respublikasının qanunvericiliyinə və Beynəlxalq hüquqa uyğun olaraq müəyyən edilmiş və ya bundan sonra müəyyən edilə bilən hər bir ərazi və üzərində olan hava məkanı başa düşülür;

Misir Ərəb Respublikasına münasibətdə, Misir Ərəb Respublikasının ərazisi, o cümlədən onun dəniz zonası, kontinental şelfi və öz suveren hüquqları çərçivəsində həyata keçirdiyi, Beynəlxalq hüquqa və Misir Ərəb Respublikasının qanunvericiliyinə uyğun olaraq ərazi kimi müəyyən edilmiş və ya bundan sonra müəyyən edilə bilən hər bir ərazi başa düşülür.

M a d d ə 2

## Sərmayələrin təşviqi və qorunması

1. Hər bir Razılığa gələn Tərəf öz qanun və qaydalarına uyğun olaraq digər Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələrini təşviq edəcək və onlar üçün əlverişli şərait yaradacaq və bu cür sərmayə qoyuluşlarına icazə verəcək.

2. Hər bir Razılığa gələn Tərəf bu sərmayələrə, yaradıldığı təqdirdə, öz sərmayəçilərinin sərmayələrinə və ya istənilən üçüncü ölkənin sərmayəçilərinin sərmayələrinə oxşar vəziyyətlərdə tətbiq olunan rejimdən, hansı daha əlverişlidirsə, az əlverişli olmayan rejim tətbiq edəcəkdir.

3. Əcnəbilərin daxil olması, müvəqqəti yaşaması və işə götürülməsinə dair Razılığa gələn Tərəflərin qanunlarına və qaydalarına uyğun olaraq:

a. sərmayənin qoyuluşu, inkişafı, əməliyyatların idarə edilməsi və məsləhətlər verilməsi məqsədi ilə əsas kapital məbləğini və ya digər resursları verən və ya verməkdə olan hər bir Razılığa gələn Tərəfin vətəndaşlarına və ya onları işə götürən birinci Razılığa gələn Tərəfin sərmayəçisinə digər Razılığa gələn Tərəfin ərazisinə daxil olmağa və qalmağa icazə verilməlidir,

b. Razılığa gələn Tərəflərdən birinin qüvvədə olan qanunvericiliyinə əsasən hüquqi şəxs kimi təsis edilmiş və digər Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayəsi ilə yaradılmış şirkətlərə vətəndaşlığından asılı olmayaraq lazımi ixtisasa və təcrübəyə malik olan inzibati işçi heyəti və texniki heyəti işə götürməyə icazə verməlidir.

4. Bu Maddənin müddəaları hər bir Razılığa gələn Tərəfin iştirakçısı olduğu aşağıdakı Sazişlərə təsir etməyəcəkdir:

a. hər hansı bir mövcud olan və ya gələcəkdə yaradılacaq gömrük ittifaqları, regional iqtisadi təşkilatlar və ya oxşar Beynəlxalq Sazişlərlə bağlı;

b. tam və ya əsasən vergitutmalara aid olan razılaşmalarla bağlı.

M a d d ə 3

## Ekspropriasiya və kompensasiya

1. Müvafiq qanuni prosedura və bu Sazişin 2-ci Maddəsində nəzərdə tutulan rejimin əsas prinsiplərinə uyğun olaraq və ictimai məqsədlər üçün ayrı-seçkilik qoyulmadan, təxirasalınmaz, müqabil və səmərəli kompensasiya ödənildiyi hallar istisna olmaqla, sərmayələr ekspropriasiyaya, milliləşdirməyə və ya oxşar təsirli birbaşa tədbirlərə məruz qalmır.

2. Ödənilən kompensasiyalar ekspropriasiya tədbirləri görülməzdən əvvəl və ya onların məlum olmasına qədər ekspropriasiya edilən sərmayənin real dəyərinə münasib olmalıdır.

Kompensasiya 4-cü Maddənin 2-ci bəndində göstərildiyi kimi səbəbsiz təxirəsalınmadan və sərbəst köçürülə biləcək şəkildə ödənilməlidir.

3. Hər bir Razılığa gələn Tərəfin ərazisində müharibə və ya hər hansı bir silahlı münaqişə, inqilab, fövqəladə vəziyyət və ya üsyan və ya digər oxşar hadisələr nəticəsində sərmayələri itkiyə məruz qalmış digər Razılığa gələn Tərəfin sərmayəçiləri üçün öz sərmayəçiləri və ya hər hansı bir üçüncü dövlətin sərmayəçilərinə yaradılmış əlverişli rejimdən az əlverişli olmayan, bu cür itkilər üçün özünün həyata keçirdiyi tədbirlərə münasibətdə hər hansı bir ən əlverişli rejim tətbiq etməlidir.

M a d d ə 4

## Repatriasiya və köçürmə

1) Hər bir Razılığa gələn Tərəf milli qanunvericiliyə və Razılığa gələn Tərəflər arasında mövcud olan Sazişlərə uyğun olaraq qoyulacaq sərmayələrə aid olan bütün köçürmələrin vicdanla, sərbəst və səbəbsiz ləngitmədən öz ərazisinə və ya ondan kənara köçürülməsinə icazə verir. Bu cür köçürmələrə aşağıdakılar aiddir:

A) Gəlirlər,

B) Sərmayənin tam və ya hər hansı bir hissəsinin satışından və ya ləğv edilməsindən alınan mənfəət,

C) 3-cü Maddəyə uyğun olaraq verilən kompensasiya,

D) Sərmayələrlə bağlı olan borclarla əlaqədar ödəmələr və faizlər,

E) Bir Razılığa gələn Tərəfin ərazisində digər Razılığa gələn Tərəfin vətəndaşı tərəfindən sərmayələrə dair müvafiq iş icazəsi əsasında əldə edilən qazanc, maaş və digər mükafatlar,

F) Sərmayələrə aid mübahisəsindən irəli gələn ödəmələr.

2) Köçürmələr, əgər sərmayəçi və qəbul edən Razılığa gələn Tərəf arasında digər razılaşma mövcud deyilsə, sərmayənin qoyulduğu dönərli valyutada və ya hər hansı bir dönərli valyutanın köçürmə günü mövcud olan mübadilə məzənnəsi üzrə qəbul edən Dövlət tərəfindən həyata keçirilir.

M a d d ə 5

## Subroqasiya

1. Bir Razılığa gələn Tərəfin sərmayəçisi tərəfindən edilmiş sərmayə qanun əsasında yaradılan sistemə uyğun olaraq qeyri-kommersiya riskindən sığortalanmışsa, sığortaçının sığorta müqaviləsinin şərtlərindən irəli gələn hər hansı bir subroqasiya hüququ, əgər

sığortaçı sərmayəçi qəbul edən Tərəfin ərazisində yerli məhkəmə və inzibati prosedurlardan keçmişdirsə digər Razılığa gələn Tərəfindən tanınmalıdır.

2. Sığortaçının sərmayəçinin həyata keçirə biləcəyi hüquqlardan artıq olan hər hansı hüquqları həyata keçirməyə hüququ yoxdur.

3. Razılığa gələn Tərəflə və sığortaçı arasında yaranan mübahisələr bu Sazişin 7-ci Maddəsinin müddəalarına uyğun olaraq həll edilir.

M a d d ə 6

## Məhdudlaşdırma

Bu Saziş:

a. qanun və qaydalardan, inzibati təcrübədən və prosedurlardan, Razılığa gələn Tərəflərdən hər hansı birinin inzibati və məhkəmə qərarlarından,

b. Beynəlxalq hüquqi öhdəliklərdən və ya,

c. hər bir Razılığa gələn Tərəfin öz üzərinə götürdüyü öhdəliklərdən, o cümlədən oxşar vəziyyətdə onun əsasında sərmayələrə və ya əlaqəli fəaliyyətlərə tətbiq edilən rejimdən daha əlverişli rejimin tətbiq edilməsinə icazə verən sərmayə haqqında razılaşmada və ya sərmayə qoyuluşu etməyə icazə verən öhdəliklərdən

irəli gələn hüquqları məhdudlaşdırmır.

M a d d ə 7

## Bir Razılığa gələn Tərəflə, digər Razılığa gələn Tərəfin sərmayəçisi arasında mübahisələr

1. Sərmayə qoyuluşu ilə bağlı bir Razılığa gələn Tərəfin sərmayəçisi ilə qəbul edən digər Razılığa gələn Tərəf arasında mübahisənin mümkün qədər dostcasına həll edilməsi məqsədi ilə Razılığa gələn Tərəflər arasında məsləhətləşmələr aparılmalıdır.

2. Əgər bu məsləhətləşmələr mübahisənin tənzimlənməsi ilə əlaqədar müraciət edildiyi tarixdən keçən 6 ay ərzində nəticə verməzsə, sərmayəçi öz seçimi əsasında mübahisənin həlli ilə əlaqədar aşağıdakılara müraciət edə bilər:

a. «Dövlətlər və digər Dövlətlərin vətəndaşları arasında sərmayə mübahisələrinin həll edilməsi haqqında konvensiya» əsasında təsis edilmiş sərmayə mübahisələrinin həll edilməsi üzrə Beynəlxalq Mərkəzə (əgər hər iki Tərəf bu konvensiyanı imzalamışdırsa):

b. Beynəlxalq ticarət hüququ məsələləri üzrə BMT komissiyasının (UNCITRAL) arbitraj prosedur qaydaları əsasında yaradılan ad hoc arbitraj məhkəməsinə;

Əgər sərmayəçi sözügedən mübahisəni onun həll edilməsi məqsədilə mübahisədə iştirak edən Tərəfin məhkəməsinə vermişsə və iki il ərzində bu mübahisə üzrə yekun qərar çıxarılmamışdırsa o, yuxarıda göstərilən məhkəmələrə müraciət edə bilər.

3. Arbitraj məhkəməsinin qərarları mübahisədə iştirak edən Tərəflər üçün qəti və məcburidir. Hər bir Razılığa gələn Tərəf qərarları öz daxili qanunvericiliyinə uyğun olaraq həyata keçirməsini öhdəsinə götürür.

M a d d ə 8

## Razılığa gələn Tərəflər arasında yaranan mübahisələr

1. Razılığa gələn Tərəflər bu Sazişin şərhi və ya tətbiqi ilə əlaqədar onlar arasında yaranan hər bir mübahisənin xoş məramla, əməkdaşlıq ruhunda tezliklə və ədalətli həll edilməsinə çalışmalıdırlar. Bununla Razılığa gələn Tərəflər mübahisənin həll edilməsinə nail olmaq üçün birbaşa və açıq danışıqların aparılmasına razılaşırlar. Razılığa gələn Tərəflər mübahisənin başlanmasından sonra altı ay ərzində yuxarıda qeyd edilən proseduralar vasitəsi ilə onlar arasında razılaşmaya nail olmadıqda, mübahisə hər bir Razılığa gələn Tərəfin sorğusuna əsasən, üç üzvdən ibarət arbitraj məhkəməsinə təqdim edilir.

2. Müraciət alındıqdan sonrakı iki ay ərzində, hər bir Razılığa gələn Tərəf hakim təyin etməlidir. Həmin bu iki hakim sədr kimi, üçüncü dövlətin vətəndaşı olan üçüncü hakimi seçir. Müəyyən edilmiş müddət ərzində hər hansı bir Razılığa gələn Tərəf hakimin təyin edilməsinə nail ola bilmədiyi təqdirdə, digər Razılığa gələn Tərəf təyinatın edilməsini Beynəlxalq ədalət Məhkəməsinin Prezidentindən xahiş edə bilər.

3. Hər iki hakim onların təyin edilməsindən sonrakı iki ay ərzində sədrin seçilməsi məsələsində Razılığa gələ bilmədikləri halda, sədr hər hansı bir Razılığa gələn Tərəfin müraciətinə əsasən Beynəlxalq Ədalət Məhkəməsinin Prezidenti tərəfindən təyin edilir.

4. Əgər, bu Maddənin 2 və 3-cü bəndlərində göstərilən hallarda Beynəlxalq ədalət Məhkəməsinin Prezidenti qeyd edilən funksiyanın yerinə yetirilməsinə səlahiyyətli deyilsə və ya o, hər hansı bir Razılığa gələn Tərəfin vətəndaşıdırsa, təyinatlar vitse-Prezident Tərəfindən həyata keçirilir. əgər vitse-Prezident də qeyd edilən funksiyanın yerinə yetirilməsinə səlahiyyətli deyilsə və ya o da hər hansı bir Razılığa gələn Tərəfin vətəndaşıdırsa, təyinatlar Məhkəmənin yüksək vəzifəli və Razılığa gələn Tərəfin vətəndaşı olmayan üzvü tərəfindən həyata keçirilir.

5. Arbitraj Məhkəməsi sədrin seçildiyi tarixdən etibarən bu Sazişin digər müddəalarına zidd olmayan prosedur qaydalarını razılaşdırmaq üçün üç ay vaxt müddətinə malikdir. Bu cür razılaşmanın olmadığı təqdirdə, məhkəmə ümumi tanınmış Beynəlxalq arbitraj prosedur qaydalarını nəzərə alaraq prosedur qaydalarının müəyyən edilməsini Beynəlxalq Ədalət Məhkəməsinin Prezidentindən xahiş edir.

6. Arbitraj Məhkəməsinin yeri Razılığa gələn Tərəflər arasında qarşılıqlı razılaşma əsasında müəyyən edilir və mübahisəyə ərazisində sərmayə qoyuluşunun edildiyi Razılığa gələn Tərəfin qanunlarına uyğun olaraq baxılır. Əgər digər razılaşma nəzərdə tutulmayıbdırsa, sənədlərin bütün təqdimatı və ingilis dilində tərtib olunmalı məhkəmə protokolları üçüncü hakimin seçildiyi tarixdən etibarən səkkiz ay müddətində başa çatmalı, və məhkəmə öz qərarlarını yekun sənədlərin təqdim edilməsi və ya məhkəmə baxışının başa çatdığı tarixlərindən daha gec olanından sonrakı iki ay ərzində qəbul edir. Arbitraj məhkəməsi yekun və məcburi olan qərarlarını səs çoxluğu ilə qəbul edir.

7. Sədrin, digər hakimlərin xərcləri və icraatla bağlı digər məsrəflər bərabər şəkildə Razılığa gələn Tərəflər vasitəsilə bərabər qaydada ödənilir. Buna baxmayaraq, məhkəmə öz mülahizəsinə əsasən xərclərin çox hissəsinin ödənilməsini bir Razılığa gələn Tərəfin üzərinə qoyulması qərarını qəbul edə bilər.

8. Əgər mübahisə 7-ci Maddənin müddəalarına əsasən digər Beynəlxalq arbitraj məhkəməsinə təqdim edilibdirsə və o, hələ də məhkəmədədirsə, belə halda bu maddənin müddəalarına əsasən Beynəlxalq arbitraj məhkəməsinə təqdim edilə bilməz. Bu, Razılığa gələn Tərəflər arasında birbaşa görüşlərin və açıq danışıqların aparılmasına mənfi təsir göstərmir.

M a d d ə 9

## Qüvvəyə minmə, qüvvədə olma və qüvvədən düşmə

1. Bu Saziş ratifikasiya edilməli və ratifikasiya sənədlərinin mübadiləsi başa çatdığı tarixindən qüvvəyə minir. Bu Saziş on il müddətinə qüvvədə qalır və bu maddənin 2-ci bəndinə uyğun olaraq ləğv edilməyənə qədər qüvvədə qalmaqda davam edəcəkdir. Bu Saziş onun qüvvəyə mindiyi tarixdə mövcud olan sərmayələrə, habelə onun qüvvəyə minməsindən sonra qoyulan və əldə edilən sərmayələrə tətbiq ediləcəkdir.

2. Razılığa gələn Tərəflərdən hər hansı biri digər Razılığa gələn Tərəfə bir il qabaqcadan yazılı bildirişi birinci on illik müddətin sonunda və ya ondan sonra istənilən müddətdə təqdim etməklə bu Sazişi ləğv edə bilər.

3. Bu Sazişə Razılığa gələn Tərəflər arasında aparılan yazılı bildiriş vasitəsilə düzəlişlər edilə bilər. Hər bir düzəliş hər bir Tərəfin bu düzəlişin qüvvəyə minməsi üçün tələb olunan bütün dövlətdaxili prosedurları başa çatdırdığı haqqında digər Tərəfə bildiriş verdiyi andan qüvvəyə minir.

4. Bu Sazişin müddəti başa çatana qədər qoyulmuş və ya əldə edilmiş və eləcə də bu Sazişin başqa şəkildə tətbiq edildiyi sərmayələrə münasibətdə, bu Sazişin bütün digər maddələrinin müddəaları onun qüvvədən düşmə tarixindən etibarən 10 il müddətində öz qüvvəsini saxlayacaqdır.

Bunun təsdiqi olaraq, öz Hökumətləri tərəfindən müvafiq qaydada müvəkkil edilmişlər bu Sazişi imzalamışlar.

Bakıda iyirmi dörd oktyabr 2002-ci ildə iki nüsxədə Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır. Bütün mətnlər eyni qüvvəyə malikdir. Mətnlərin təfsirində ziddiyyət yaranarsa, ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

**Azərbaycan Respublikası Hökuməti adından**

*(imza)*

**Misir Ərəb Respublikası Hökuməti adından**

*(imza)*